Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun İcraçı Direksiyasına

"Hüceyrə membranların fiziki-kimyəvi xassələri" laboratoriyasının rəhbəri AMEA-nın müxbir üzvü, b.e.d., prof. Gasimov Xəlil Məmmədəli oğlu İsvec, Upsala şəhərində keçirilən "5th World Conference on Drug Absorption Transport and Delivery" beynəlxalq konfransda 23-28 2013 il tarixində elmi ezamiyyətdə olduğu haqqında

HESABAT

Sizə məlum olduğu kimi, mən İsvec, Upsala şəhəri, 24-26 iyun 2013-ci il tarixində keçirilən "5th World Conference on Drug Absorption Transport and Delivery (WCDATD): Responding to Challenging Situations" beynəlxalq konfransa dəvət almışdım. 2013-cü il 1-ci "Mobillik qrantı" musabiqəsindən (EİF-Mob-1-2013-1(7)) keçərək xaricdə elmi tədbirdə iştirak etmək üçün Azərbaycan Respublikasinin Prezidenti yanınında Elmin İnkişafı Fondu tərəfindən mənə 2600 manat məbləqində maliyyə ayrılmışdır. Həmin konfransda "The development of molecular trans-membrane channel systems for delivery ions and carbohydrates to heart muscle cells at pathology" şifahi elmi məruzə ilə çıxış etmişəm (dərc olunmuş elmi məqalə əlavə olunur). Tədbirnən əlaqədar olaraq

maliyyə xərcləri haqqında bütün sənədlər Elmin İnkişafı Fondunun Direksiyasına təqdim olunmuşdur. Keçirilən konfransın əsas məqsədi molekulyar biologiyanın yeni üsullarından istifadə edərək zədələnmiş və, yaxud, muəyyən xəstəliyə tutulmuş hüceyrələri tez bir zamanda bərpa etmək imkanlarını tabıb üzə çıxartmaqdan ibarətiydi. Bu konfransda muxtəlif ölkələrdən gələn alimlər iştirak etmişlər, məs.: ABŞ – 8, İsvec – 8, Almaniya – 8, Yaponiya – 7, İngiltərə - 7, Hollandiya – 7, Türkiyə - 7, İsvecrə - 3, Belçika – 3, İrlandiya – 3, Portugaliya – 3, Serbiya – 3, Danimarka – 3, Kanada – 2, İsrail – 2, İran – 2, Fələstin – 2, Yunanıstan – 2, Çexiya – 2, Fransa – 1, Finlandiya – 1, İspaniya – 1, Çili – 1, Cənubi Afrika – 1, Avstraliya – 1, Xorvatiya – 1, Ruminiya – 1, Macarıstan – 1, Azərbaycan – 1 saylı alimlərlə təmsil olunmuşlar. Konfransın gedişində ABŞ, İsvec, İngiltərə, Avstraliya, Almaniya və Türkiyə alimləri ilə sıx elmi əməkdaşlıq haqqında söhbət aparmişam. Onlardan bir çoxu elə bu zaman Bakıya gəlib bizimlə elmi-tədqiqat işləri aparmaq niyyətindədirlər. Lakin laboratoriyada lazım olan avadanlıq olmadığına görə elmi əməkdaşlıq təxirə salınır. Göstərilən tədbirlə əlaqədar olaraq nəzərinizə çatdırıram ki, məruzə zamanı alinan foto şəkillər Sizə təqdim olunmuşdur.

03.09.2013

Gasimov X.M